# Nağıl və zərb-məsəllər kiçikyaşlı məktəblilərdə əqli tərbiyənin inkişaf vasitəsi kimi

**Ayşən Kənan qızı Məmmədova**
*Bakı Qızlar Universiteti*
**E-mail:** aysenmemmedova99@mail.ru

**Rəyçilər:** p.ü.f.d. P.M. Həsənova,
p.ü.f.d. F.M. Allahverdiyeva

**Açar sözlər:** nağıl, zərb-məsəllər, kiçikyaşlı məktəbli, əqli tərbiyə.
**Ключевые слова:** сказка, притчи, младшее школьники, умственное воспитание
**Key words:** fairy tale, parables, young schoolchildren, mental education

Folklor nümunələrindən istifadə kiçikyaşlı məktəblilərin əqli tərbiyəsində rolu günümüzdə olduqca aktual olan məsələlərdəndir. Belə ki, bu rolun nə qədər əhəmiyyətli və uşağın əqli inkişafı ilə qırılmaz surətdə bağlı olması danılmaz bir faktordur. Uzun illər ərzində aparılmış araşdırmalara istinadən bu gün deyə bilərik ki, kiçikyaşlı uşaqların hərtərəfli surətdə inkişafı üçün istər valideynlər, istərsə də pedaqoqlar tərəfindən zəngin folklor nümunələrimizə müraciət edilməlidir. Çünki digər inkişafetdirici vasitələrlə yanaşı folklor nümunələrimiz, xüsusilə də nağıl və zərb-məsəllərdən istifadə olduqca məqsədəuyğun hesab olunur.

P.N. Boratov "Yüz soruda türk xalq ədəbiyyatı" kitabında nağıllar haqqında yazır: "Nağıl nəsrlə söylənmiş, dini və cadu inanışlardan və törələrdən azad, tamamilə xəyal ürünü, gerçəklə əlaqəsiz və anlatdıqlarını inandırmaq iddiası olmayan qısa bir əhvalatdır" (7, s. 80).

Nağıllarda uşaqlar, onların gələcəyi və sağlam böyüməsi üçün əhəmiyyətli olan anlayışlar məcazi mənada verilir. Məhz bu səbəbdən uşaqlar tərəfindən nağıllar daha asan mənimsənilir və zehnində dərin, əhəmiyyətli iz qoyur. Nağıllar uşaqları əvvəlcədən qarşılaşa biləcəkləri çətin situasiyalarla qarşılaşdırır, həmin problemli situasiyaları həll etməyin yollarını onlara bilavasitə və ya dolaysı yolla göstərir. Uşaq nağıllar vasitəsi ilə gələcəkdə qarşılaşa biləcəyi çətin məqamları öyrənir, onun əqidəsində cəsarət və qorxaqlıq, yaxşılıq və pislik, dostluq və xəyanət haqqında ilkin fikirlər formalaşır. Uşağa nəyin yaxşı və nəyin yaxşı olmadığını daha asan və daha sadə dildə izah edən, ona həm əxlaqi dəyərləri aşılayan, həm də ki, əqli inkişafı üçün lazım olan nağıllar olduqca güclü təsirə malikdir.

Nağılın daha səlis və anlaşıqlı oxunulması uşaqların nağıl aləminə daha dərindən nüfuz edərək o aləmdə xəyallara dalmalarına, yaxşını pisdən daha asan seçə bilmələrinə, personajlar haqqında doğru qərarlar qəbul etmələrinə, valideyinlə aparılmış fikir mübadiləsi zamanı özünü daha rahat hiss etmələrinə, fikirlərini aydın surətdə ifadə edə bilmələrinə və ən əsası nağılın mahiyyət etibari ilə onların əqli tərbiyələrinə daha asan və qüvvətli şəkildə nüfuz etməsinə şərait yaradacaqdır. Nağıllar uşaqların biliyini, dünyagörüşünü genişləndirir, əxlaqi və əqli cəhətdən inkişafına təkan verir.

Nağıllardan istifadə valideynlər, pedaqoqlar, tərbiyəçi müəllimlər və müəllimlər üçün olduqca vacibdir. Nağıl seçərkən uşağın psixoloji-emosional inkişaf xüsusiyyətlərini, arzu və istəklərini nəzərə almaq lazımdır. Onlara daha çox təsir edə biləcək, onların əqli tərbiyəsinə müsbət təsir göstərən nağılın seçilməsi təlim-tərbiyə prosesində daha uğurlu nəticələrin əldə edilməsinə gətirib çıxaracaqdır.

Pedaqoqların qarşısında duran ən önəmli məqamlardan biri - yəni uşaqların təlim-tərbiyəsi

zamanı folklor nümunələrindən istifadə edilməsi olduqca mürəkkəb prosesdir. Mahiyyət etibarı ilə düzgün nağılın seçilməsi və təqdimi də özünəməxsus çətinliyi ilə seçilir. Nağılların canlı danışılması və nağılı ifadə edərkən bədii vasitələrdən geniş istifadə edilməsi kiçik məktəblilərin emosional inkişafına yüksək təsir edəcəkdir. Nağılın öyrədilmə metodikasında belədir ki, nağılları uşaqlara danışarkən həmin situasiyaya aid şəkillər, slaydlar və ya başqa resursların əyani surətdə uşaqlara göstərilməsi daha məqsədəuyğundur. Uşaqların həm eşitmə, həm də görməsi - bu iki sensor aparatın birlikdə işləməsi uşaqların əqli imkanlarını genişləndirir, onların idrakı inkişafına səbəb olur. Bununla yanaşı, nağıl personajlarının iştirakı ilə sanki nağıl qəhrəmanlarını əks etdirən kiçik amma tərbiyəvi rolu böyük səhnəciklərin təşkil olunması məqsədəuyğundur. Uşaqların diqqətini nağıla daha da çox cəlb etmək məqsədi ilə müəyyən miqdarda suallar hazırlayıb nağıl əsnasında onlara təqdim etmək də olar. Bunu araşdıraq:

- Nağılın adı nədir? Bəs sən hansı adı verərdin? Niyə?
- Nağıl hansı sonluqla qurtarır? Bəs sən nağıl sonluğunun necə olmasını istəyərdin?
- Nağıldakı baş qəhrəmana nə demək istəyərdin?
- Nağıldakı hansı qəhrəmanı və onun davranışını daha çox sevdin?
- Həmin bu sevdiyin qəhrəmana nə demək istərdin? və s.

Bu və ya digər suallar uşaqların təfəkkürünü daha da inkişaf etdirməyə xidmət edir. Sırf bu səbəbdən belə suallardan istifadə gözlənilən müsbət nəticəni verəcəkdir.

Xalq nağıllarımız uzun əsrlərdən bəri xalqımızın hikmətini, adət-ənənələrimizi, dünyagörüşümüzü, bitib-tükənməyən mili dəyərlərimizi özündə qoruyub saxlamaqdadır. Azərbaycan xalqı sabahın gələcəyi olan uşaqlarımızı geniş tarixə malik milli dəyərlərimiz əsasında tərbiyə etməyə hər daim üstünlük vermişdir. Uşağın tərbiyəsi zamanı istər məktəbdə, istərsə də ailədə, ictimaiyyətdə bu amillər xüsusiylə nəzərə alınır. Xoşbəxtlikdən bizim milli-mənəvi dəyərlərimizə istinad edən olduqca geniş folklorumuz var. Folklorumuzun ən gözəl nümunələrindən olan nağıllarımız başdan-başa milli mənəvi dəyərlər əsasında köklənmişdir və bizim milli-mənəvi dəyərlərimiz də nağıllarımızdan yaranıb və bu gün də bizim vətənpərvərlik hissinin formalaşmasında böyük rol oynayır. Məsələn, nağıllarda yaxşılıq təqdir olunur. Xeyrin şər üzərindəki qələbəsi Azərbaycan nağıllarının ən aktual məsələlərindən biridir. Nağılı dinləyərkən sonda xeyrin şəri üstələməsini bəzən uşaqlar özləri də tələb edirlər. Çünki həyatı eybəcərliklərdən azad, gözəlliklərlə əhatələnmiş görmək kiçik məktəblilərin arzusudur. Bu cür keyfiyyətlərin uşaqlara nağıllar vasitəsi ilə aşılanması isə onların əqli tərbiyəsində nağıllardan istifadənin nə dərəcədə əhəmiyyətli olduğunun bariz sübutlarından biridir.

Nağıllardan istifadə zamanı uşaqların yaş xüsusiyyətlərini də nəzərə almaq lazımdır. Belə ki, uşaqlara məhəbbət, sevgi nağılları əvəzinə tərbiyəvi əhəmiyyət kəsb edən, vətənə, millətə, insanlara, valideynə, böyüklərə sevgi ilə yanaşmağı, ailəyə sevgi, mehribançılıq, cəsur və dürüst olmağı, yaxşılıq etməyi və hər yaxşılığın nəticəsini görməyi, qəhrəmanlıq göstərib dostlarını yaxşı olmayan adamlardan, pis əməllərdən çəkinməyi, vətənə xainlik edənlərin, vətəndə gözü olanların cavabını vermək, pisliklərə boyun əyməməyi və s. kimi tərbiyəvi məsələləri təbliğ edən nağılları öyrətmək lazımdır. Məsələn: «Ağıllı qoca», «Taxta qılınc», «Yalançı çobanın nağılı», «Yoxsul qoca və vəzir» və s.

Azərbaycan folklorunda özünəməxsus yeri olan nağıllarımız kifayət qədər geniş hikmətamiz məzmun daşıdığı üçün günümüzdə kiçikyaşlı məktəblilərin əqli tərbiyəsində istifadə edilməsi lazımdır. Bu cür hikmətamiz nağılların məktəbdə tədrisi zamanı müəllimlərin əyani vasitələrdən istifadə etməsi şagirdlərin mənimsəməsində daha yüksək nəticə əldə edilməsinə səbəb olacaqdır. Hətta müəllim şagirdlərdə elə motivasiya yarada bilər ki, şagirdlər özləri müəy-

yən miqdarda nağılları qura, hətta özlərini belə bu obrazda təsəvvür edə bilərlər. Təbii ki, onların hazırladığı nağıllar çox da mükəmməl olmayacaq, nağıl daxilində uşaq təfəkkürü, düşüncəsi öz əksini tapacaqdır. Lakin uşaqlar bundan həvəsə gələcək və növbəti səfərlərdə daha da gözəl, maraqlı nağıllar yaratmağa can atacaqdır. Hətta zaman keçdikcə uşaqlar nağıl qəhrəmanlarının müsbət və mənfi xüsusiyyətlərini özləri dilə gətirə biləcəklər. Təbii ki, bu sevindirici bir haldır. Dərsin gedişatına əsasən uşaqlarda özlərinə inam, folklorumuza qarşı maraq hissi daha da qüvvətlənəcəkdir.

Nağıllar kimi zərb-məsəllərin də kiçikyaşlı məktəblilərin əqli tərbiyəsində rolu danılmazdır. Zərb-məsəllər mahiyyət etibari ilə atalar sözlərinə bənzəsə də, ondan bir çox özünəməxsus xüsusiyyətləri ilə seçilir. Belə ki, onların arasındakı incə fərqi tutmaq və bu fərqi uşaqlara başa salmaq birbaşa böyüklərin öhdəliyinə düşür. Bu məqamda deyə bilərik ki, atalar sözlərindən fərqli olaraq məsəllər müəyyən bir hadisə ilə bağlı olur və mövcud hadisəylə əlaqədar istifadə edilir. Bir çox zamanlarda məsəllərdən istifadə edərkən "Belə bir məsəl var...", "Məsəl var deyərlər..." və s. kimi hazır ifadələrdən istifadə edilir. Bu isə dinləyicilərin nəzərinə çatdırılacaq folklor nümunəsinin atalar sözü deyil, məsəl olduğuna işarə edir.

Məsəllərin kiçikyaşlı məktəblilərin əqli tərbiyəsindəki rolunu izah edərkən bir neçə nümunəyə nəzər yetirək: "Göyçə muncuq hardadır, mənim canım ondadır", "Filin biri də gəldi", "Sən çaldın", "Qələt yağ küpəsindədir", "Dava yorğan davasıdır" məsəlləri Molla Nəsrəddin lətifələri, "Çünki oldun dəyirmançı, çağır gəlsin dən Koroğlu", "Ölüb Fərhad, gəlmir külüngünün səsi", "Leyliyə Məcnun gözü ilə bax", "Bütövü kəsmə, paraya dəymə, doğra, doyunca ye" və s.

Təbii ki, hər bir məsəlin bir ibrətamiz hekayəsi, izahı vardır. Bu kimi məsəllərin izahını verərkən kiçikyaşlı məktəblilərin dünyagörüşünü formalaşdırmaq istiqamətində müəyyən addımlar atılmalıdır. Belə ki, məsəlin izahı yarı-yarımçıq verilməməlidir. Məsəl daxilindəki ən önəmli məqamlar daha qabarıq surətdə uşağın nəzərinə çatdırılmalıdır. Bu zaman səs tonunun birdən-birə dəyişməsi, həyəcanlı aksent, jest və mimikalardan yerində istifadə, onlarda məsəl hekayəsinə diqqətlə qulaq asmaları üçün həvəs hissinin oyadılması və s. İzah zamanı çalışmaq lazımdır ki, uşaqlar diqqətini həmin hadisəyə yönəltsin. Bu zaman uşaqların dünyagörüşü formalaşdığı kimi, eyni zamanda onların məntiqi təfəkkürünün inkişafı üçün də lazımi şərait yaradılmış olur. Onlar həmin hadisəni gözlərinin qarşısında canlandıraraq doğrunu pisdən, yaxşını yamandan daha asan surətdə ayıra, bunun nəticəsində də məsəlin onlara verdiyi dərin mənadan daha asan nəticə çıxara bilirlər.

Hər məsəlin arxasında kiçik bir hekayənin dayanması zamanla məsəllərin atalar sözlərinə, atalar sözlərinin isə məsəllərə çevrilməsi üçün əlverişli şərait yaratmış olur. Elə məsəllər vardır ki, zaman keçdikcə daha işlək hal alır və xüsusi bir izaha ehtiyac olmadan xalqın dilində atalar sözü kimi dəyərli folklor nümunəsinə çevrilir.

Elə bir azərbaycanlı tapılmaz ki, o, gün ərzində folklor nümunələrimiz, xüsusiylə də nağıllar və məsəllərlə qarşılaşmasın. Onlardan bixəbər böyüyüb boya-başa çatsın. Odur ki, hər bir azərbaycanlı folklor nümunələrini böyüklərindən, yoldaşlarından, müəllim və tərbiyəçilərindən eşidərək, onun mahiyyətini dərk edib nəticə çıxararaq böyüyür. Hətta böyüyüb həddi-büluğa çatdıqdan sonra belə həyatın hər bir anında folklorumuzla qarşılaşır, yenə nələrisə öyrənir və ya öyrədir.

Həyatı boyunca folklor nümunələri əsasında böyüyən hər bir şəxs bu millətin övladı olmaqla, xalqın özünəməxsus mədəniyyət, adət-ənənə, tələb və keyfiyyətləri ruhunda böyüyüb formalaşır. İnsan yaşa dolduqca nağıl və məsəllər onu yenə də müşayiət edir. Çünki digər folklor nümunələri kimi nağıl və məsəllər də xalqın tərbiyə məktəbidir.

Nağıl və məsəllər kiçikyaşlı məktəblilərin tərbiyə prosesində geniş surətdə istifadə edilən folklor nümunələrimizdəndir. Şagirdlərin əqli tərbiyəsindəki roluna nəzər yetirsək danılmaz vasitə olduğu qənaətinə gələ bilərik. Hal-hazırda bir çox pedaqoq, tərbiyəçi və valideynlər tərəfindən nağıl və dastanların genişmiqyaslı istifadəsi məsələni kifayət qədər aktual edir. Nağıllar uşaqların dünyagörüşünün formalaşmasına, məsəllər isə intellektual inkişafına zəmin yaradır. Belə ki, kiçikyaşlı məktəblilərin əqli tərbiyəsində folklor nümunələri, xüsusiylə də nağıl və məsəllərdən istifadə tərbiyə prosesinin gedişatı və əldə ediləcək nəticə etibari ilə olduqca əhəmiyyətlidir.

**Məqalənin aktuallığı.** Torpaqlarımızın düşmən işğalından azad olunduğu və düşmən üzərində qələbə çaldığımız dövrdə vətənpərvərlik tərbiyəsi əvvəlki dövrdən daha çox vacibdir. Uşaqlarımızın milli-mənəvi dəyərlər ruhunda, vətənpərvərlik ruhunda tərbiyəsində ən mühüm vasitələrdən biri nağıllardır, zərb-məsəllərdir. Məhz nağılların, zərb-məsəllərin uşaqlara öyrədilməsi müasir dövr üçün çox böyük aktuallıq təşkil edir.

**Məqalənin elmi yeniliyi.** Uşaqların əqli inkişafında nağıllar və zərb-məsəllərdən istifadə imkanlarından bəhrələnmək məqalənin elmi yeniliyini təşkil edir. Çünki uşaqların sensor aparatının birgə fəaliyyət göstərməsi, onların təfəkkürünü fəallaşdırır, analiz, sintez, əqli nəticəyə gəlmələrini tezləşdirir. Yəni həm görmə, həm eşitmə, həm duyma uşaqları nağılın situasiyası ilə yaşamağa vadar edir və onlar nağıl qəhrəmanları ruhunda böyüyürlər. Böyüyəndə nağıl qəhrəmanlarının xüsusiyyətlərinin daşıyıcısı rolunda çıxış edirlər.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən magistrantlar, ibtidai sinif müəllimləri və tərbiyəçi müəllimlər faydalana bilərlər.

## Ədəbiyyat

1. Əfəndiyev F. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, 2012. 594 s.
2. Əhmədov H. Pedaqogika. Bakı, 2013. 120 s.
3. Həsənqızı A. Folklorşünaslığa giriş. Bakı, 2015. 258 s.
4. Həsənova P. Folklor nümunələri əsasında uşaqlarda mənəvi keyfiyyətlərin formalaşdırılması. Bakı, 2021. 50 s.
5. Quliyev S. Ailə pedaqogikasının ümumi problemləri. Bakı, 2005. 415 s.
6. Paşayev Ə., Rüstəmov F. Pedaqogika. Bakı, 2010. 462 s.
7. Perterev Naili Boratov. 100 soruda türk halk edebiyyatı, İstanbul. Gerçek yayın evi, 1973, s.80.

**А.К. Мамедова**

## Сказки и притчи у младших школьников как средство развивающего умственного воспитания

## Резюме

В статье рассматривается развитие умственного воспитания младших школьников через сказки и притчи. При чтении сказок способствует развитию логического мышления детей, расширению воображения и фантазии, появлению интеллектуальных способностей. Обсуждения мотивов сказок ведут к развитию речи и формированию миро-

воззрения у детей. Пословицы, в свою очередь, как и другие образцы фольклора, играют ключевую роль в общем развитии младших школьников. Привязка события к конкретной иллюстрации помогает юному школьнику отличить хорошее от плохого и, в конечном счете, принять правильное решение.

**A.K. Mammadova**

## Fairy tales and sayings in young schoolchildren as a means of developing mental education


### Summary

The article examines the development of mental education in young schoolchildren through fairy tales and parables. When reading fairy tales, it promotes the development of children's logical thinking, the expansion of imagination and fantasy, the emergence of intellectual abilities. Discussions about the motives of fairy tales lead to the development of speech and the formation of worldviews in children. Sayings, in turn, like other examples of folklore, play a key role in the overall development of young students. Linking an event to a specific saying helps a young student to distinguish between good and bad and, ultimately, to make the right decision.


**Redaksiyaya daxil olub:** 18.03.2022